*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 04 fevral 2021-ci il tarixli, SQ-02/2021-3 saylı qərarı ilə təsdiq edilmişdir.*

**Dairə və məntəqə seçki komissiyalarının birinci iclasının keçirilməsi qaydaları haqqında**

**T Ə L İ M A T**

Dairə və məntəqə seçki komissiyalarının birinci iclasının keçirilməsi qaydaları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun (bundan sonra – Qanun) 20.3-cü, 28-ci, 33-cü maddələri və bu Təlimatla tənzimlənir.

**1. Ümumi müddəalar**

1.1. Dairə və məntəqə seçki komissiyaları seçkilər dövründə fəaliyyət göstərir. Qanunla nəzərdə tutulan hallarda seçki komissiyası buraxılıb yenidən təşkil edilərsə, yenidən təşkil edilmiş seçki komissiyasının səlahiyyət müddəti buraxılmış seçki komissiyasının səlahiyyət müddəti ilə məhdudlaşır. Müvafiq seçki komissiyası üzvünün səlahiyyəti onun seçilməsi barədə qərarın qüvvəyə minməsi ilə başlanır və komissiyanın səlahiyyət müddətinin başa çatması ilə bitir.

1.2. Dairə seçki komissiyası 7 üzvdən ibarətdir. Dairə seçki komissiyasının tərkibi müvafiq ərazidə ictimai birliklərin, siyasi partiyaların yerli təşkilatları və yaşayış yeri üzrə seçicilərin yığıncağının göstərdikləri namizədlər arasında Mərkəzi Seçki

Komissiyasının müəyyən etdiyi qaydada keçirilən püşkatma yolu ilə müəyyən edilir.

1.3. Dairə seçki komissiyasının iclası onun üzvlərinin 2/3-si seçildikdə səlahiyyətlidir.

1.4. Məntəqə seçki komissiyası 5 üzvdən ibarətdir. Məntəqə seçki komissiyalarının tərkibi müvafiq ərazidə ictimai birliklərin, siyasi partiyaların yerli təşkilatlarının və həmin dairə seçicilərinin yığıncaqlarının göstərdikləri namizədlər arasında Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada keçirilən püşkatma yolu ilə müəyyən edilir.

1.5. Məntəqə seçki komissiyasının iclası komissiyanın üzvlərinin 2/3-si seçildikdə səlahiyyətlidir.

1.6. Müvafiq seçki komissiyası onun üzvlərinin seçildiyi gündən ən geci 5 gün ərzində birinci iclasına toplaşır.

1.7. Seçki komissiyalarının birinci iclasının keçirilməsi barədə iclasdan dərhal sonra Mərkəzi Seçki Komissiyası yazılı şəkildə məlumatlandırılır, iclas baş tutmadıqda, müvafiq komissiyaların reqlamentində nəzərdə tutulmuş qaydada davranılır.

**2. Dairə seçki komissiyasının birinci iclasının keçirilməsinə və qərarların qəbul edilməsinə dair ümumi tələblər**

2.1. Komissiyanın birinci iclasının keçirilməsinin təşkili seçilmiş komissiya üzvlərinin təşəbbüsü ilə və ya Mərkəzi Seçki Komissiyasının Katibliyi tərəfindən həyata keçirilir. Bu prosesə Mərkəzi Seçki Komissiyası nəzarət edir.

2.2. Komissiyanın iclasının keçiriləcəyi yer və vaxt barədə bütün komissiya üzvləri iclasa ən azı 24 saat qalmış şəxsən məlumatlandırılır. Qanunla müəyyən olunmuş müddətdə komissiya üzvləri ilk iclasın keçirilməsi üçün toplaşmağa borcludurlar. İclas dairə seçki komissiyasının yerləşdiyi binada keçirilir. Seçki komissiyasının iclası səlahiyyətli tərkibdə formalaşmış komissiyanın üzvlərinin azı 2/3-i iştirak etdikdə səlahiyyətli hesab edilir.

2.3. Dairə seçki komissiyasının sədri seçilənədək onun birinci iclasında iclasa yaşı daha çox olan üzv sədrlik edir. Dairə seçki komissiyasının sədri və katibi birinci iclasda gizli və ya açıq səsvermə yolu ilə seçilirlər.

2.4. Dairə seçki komissiyasının qərarı sadə səs çoxluğu ilə qəbul edilir.

2.5. Dairə seçki komissiyasının ilk iclasının protokolunu komissiyaya sədrlik edənin tapşırığına əsasən komissiya üzvlərindən biri tərtib edir.

2.6. İclasın gedişi protokolla rəsmiləşdirilməli *(Təlimata 1 saylı əlavə)*, gündəliyə uyğun olaraq qərar qəbul edilməli və 24 saat ərzində məlumat lövhəsindən asılmaq yolu ilə dərc edilməlidir. Qərar qüvvəyə mindikdən sonra dairə seçki komissiyasının sədri və katibləri seçilmiş hesab edilirlər.

**3. Məntəqə seçki komissiyasının birinci iclasının keçirilməsinə və qərarların qəbul edilməsinə dair ümumi tələblər**

3.1. Məntəqə seçki komissiyasının birinci iclasının keçirilməsini dairə seçki komissiyasının sədri təmin edir. Dairə seçki komissiyasının üzvlərinin həmin iclaslarda iştirakı da mümkündür.

3.2. Dairə seçki komissiyası məntəqə seçki komissiyasının ilk iclasının keçirilmə yeri və vaxtı barədə məntəqə seçki komissiyasının üzvlərinin iclasa ən azı 24 saat qalmış məlumatlandırılmasını təmin edir.

3.3. Məntəqə seçki komissiyasının sədri seçilənədək onun birinci iclasında iclasa yaşı daha çox olan üzv sədrlik edir. Məntəqə seçki komissiyasının sədri və katibi birinci iclasda gizli və ya açıq səsvermə yolu ilə seçilirlər.

3.4. Məntəqə seçki komissiyasının qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

3.5. Məntəqə seçki komissiyasının ilk iclasının protokolunu komissiyaya sədrlik edənin tapşırığına əsasən komissiya üzvlərindən biri tərtib edir (*Təlimata 2 saylı əlavə*). Məntəqə seçki komissiyasının qərarı ən geci 12 saat müddətində məlumat lövhəsindən asılmaq yolu ilə dərc edilməlidir. Qərar qüvvəyə mindikdən sonra məntəqə seçki komissiyasının sədri və katibləri seçilmiş hesab edilirlər.

*Təlimata 1 saylı əlavə*

**_____ saylı__________________ dairə seçki**

**komissiyasının ilk iclas**

**P R O T O K O L U №**

__________________ "____" ________ 20__ il

*(iclasın keçirildiyi yer)*

**İştirak edirlər:** Dairə seçki komissiyasının üzvləri _____ nəfər.

**İclasa sədrlik edir:** Dairə seçki komissiyasının ən yaşlı üzvü _______________________________________________________

*(soyadı, adı, atasının adı)*

**G Ü N D Ə L İ K**

**1. Dairə seçki komissiyası sədrinin və katibinin seçilməsi.**

**Eşidildi:** İclasa sədrlik edən______________________________

*(soyadı, adı, atasının adı)*

çıxış edərək, bu məsələ ilə əlaqədar, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanunundan irəli gələn məsələləri və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatını dairə seçki komissiyasının üzvlərinin nəzərinə çatdıraraq dairə seçki komissiyasının sədrinin seçilməsi üçün təkliflərini verməyi onlardan xahiş etdi.

**Çıxışlarda:** Dairə seçki komissiyasının üzvü _______________

*(soyadı, adı, atasının adı)*

çıxış edərək təklif etdi ki, ______________________________________

*(soyadı, adı, atasının adı)*

_____ saylı _______________ dairə seçki komissiyasının sədri vəzifəsinə seçilsin.

Dairə seçki komissiyasının üzvü ___________________________

*(soyadı, adı, atasının adı)*

çıxış edərək verilən təklifə tərəfdar olduğunu bildirərək, təklifin səsə qoyulmasını xahiş etdi.

**Təklif açıq səsvermə yolu ilə səsə qoyuldu.**

Lehinə __________ _________________ nəfər
*(rəqəmlə)* *(sözlə)*

Əleyhinə __________ _________________ nəfər
*(rəqəmlə)* *(sözlə)*

Bitərəf __________ _________________ nəfər
*(rəqəmlə)* *(sözlə)*

Beləliklə, səsvermənin nəticəsinə görə ______________________
*(soyadı, adı, atasının adı )*

______ saylı ________________________ dairə seçki komissiyasının sədri seçilir.

**2. Dairə seçki komissiyasının katibinin seçilməsi.**

Dairə seçki komissiyasının üzvü ____________________________
*(soyadı, adı, atasının adı)*

çıxış edərək təklif etdi ki, ____________________________________
*(soyadı, adı, atasının adı)*

dairə seçki komissiyasının katibi vəzifəsinə seçilsin.

Dairə seçki komissiyasının üzvü ____________________________
*(soyadı, adı, atasının adı)*

verilən təklifə tərəfdar olduğunu bildirərək təklifin səsə qoyulmasını xahiş etdi.

**Təklif açıq səsvermə yolu ilə səsə qoyulur.**

Lehinə __________ _________________ nəfər
*(rəqəmlə)* *(sözlə)*

Əleyhinə __________ _________________ nəfər
*(rəqəmlə)* *(sözlə)*

Bitərəf __________ _________________ nəfər
(*rəqəmlə)* *(sözlə)*

Beləliklə, səsvermənin nəticəsinə görə ______________________
*(soyadı, adı, atasının adı)*

______ saylı ______________________ dairə seçki komissiyasının katibi seçilir.

**İclasa sədrlik edən:**

_____________ _____________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

**M.Y.**
**D S K**

**Qeyd:** Protokol iki nüsxədə tərtib edilir. Bir nüsxəsi dairə seçki komissiyasında saxlanılır, bir nüsxəsi Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına göndərilir.

*Təlimata 2 saylı əlavə*

**______ saylı __________seçki dairəsinin**

**______saylı məntəqə seçki**

**komissiyasının ilk iclasının**

# P R O T O K O L U №

_________________ "____" ________ 20__ il

*(iclasın keçirildiyi yer)*

**İştirak edirlər:** Məntəqə seçki komissiyasının _____ nəfərdən ibarət üzvləri.

**İclasa sədrlik edir:** Məntəqə seçki komissiyasının ən yaşlı üzvü _____________________________________________________

*(soyadı, adı, atasının adı)*

# G Ü N D Ə L İ K

**_____ saylı ________________ dairə seçki komissiyasının**

*(dairə seçki komissiyasının adı)*

**_____ saylı məntəqə seçki komissiyasında sədr və katibin seçilməsi.**

**Eşidildi:** İclasa sədrlik edən, gündəlikdə duran məsələ ilə əlaqədar məlumat verdikdən sonra, sədr və katibin seçilməsi ilə bağlı təkliflərin verilməsini xahiş etdi.

**Çıxışlarda:**

1. Komissiya üzvü ___________________________________

*(soyadı, adı, atasının adı)*

çıxış edərək təklif etdi ki, ___________________________________

*(soyadı, adı, atasının adı)*

_____ saylı məntəqə seçki komissiyasının sədri seçilsin.

Komissiya üzvü ______________________________________

*(soyadı, adı, atasının adı)*

çıxış edərək verilən təklifə tərəfdar olduğunu bildirərək, təklifin səsə qoyulmasını xahiş etdi:

**Təklif açıq səsvermə yolu ilə səsə qoyulur:**

| | | | |
|---|---|---|---|
| Lehinə | __________ *(rəqəmlə)* | _________________ *(sözlə)* | nəfər |
| Əleyhinə | __________ *(rəqəmlə)* | _________________ *(sözlə)* | nəfər |
| Bitərəf | __________ *(rəqəmlə)* | _________________ *(sözlə)* | nəfər |

Beləliklə səsvermənin nəticəsinə görə _______________________
*(soyadı, adı, atasının adı)*
____ saylı məntəqə seçki komissiyasının sədri seçilir.

2. Məntəqə seçki komissiyasının katibinin seçilməsi ilə əlaqədar komissiya üzvü ___________________________________ çıxış
*(soyadı, adı, atasının adı)*
edərək təklif etdi ki, ____________________________________________
*(soyadı, adı, atasının adı)*
____ saylı məntəqə seçki komissiyasının katibi seçilsin.

Komissiya üzvü ____________________________________________
*(soyadı, adı, atasının adı)*
çıxış edərək verilən təklifə tərəfdar olduğunu bildirərək, təklifin səsə qoyulmasını xahiş etdi:

**Təklif açıq səsvermə yolu ilə səsə qoyulur:**

| | | | |
|---|---|---|---|
| Lehinə | __________ *(rəqəmlə)* | _________________ *(sözlə)* | nəfər |
| Əleyhinə | __________ *(rəqəmlə)* | _________________ *(sözlə)* | nəfər |
| Bitərəf | __________ *(rəqəmlə)* | _________________ *(sözlə)* | nəfər |

Beləliklə səsvermənin nəticəsinə görə _______________________
*(soyadı, adı, atasının adı)*
____ saylı məntəqə seçki komissiyasının katibi seçilir.

**İclasa sədrlik edən:**

| ______________ | ______________________________ |
|---|---|
| *(imza)* | *(soyadı, adı, atasının adı)* |

**M.Y.**

**Qeyd:** Protokol iki nüsxədə tərtib edilir. Bir nüsxəsi dairə seçki komissiyasına göndərilir, bir nüsxəsi isə məntəqə seçki komissiyasında saxlanılır.